# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№360/2** **29 noyabr 2023-cü il**

## “Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri” barədə

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunundan, “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası”ndan (2021-2030-cu illər), Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında Auditorlar Palatasının üzvlük öhdəliklərindən irəli gələn vəzifələrin və Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 3.1-ci “Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri” bəndinin icrasına dair Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış Hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

### QƏRARA ALIR:

1. “Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri barədə Hesabat” nəzərə alınsın (əlavə olunur).
2. Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında Auditorlar Palatasının üzvlük öhdəliklərindən irəli gələn vəzifələrin məsul şəxslər tərəfindən icra vəziyyəti qənaətbəxş hesab edilsin.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bir ay müddətində bu qərarın və “Hesabat”ın mətnlərinin ingilis dilinə tərcümə edilməsi və Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) göndərilməsi təmin edilsin.
4. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bir ay müddətində bu “Hesabat” əsasında geniş məqalənin hazırlanması və KİV-də dərc etdirilməsi təmin edilsin.
5. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Palatanın struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, IFAC qarşısında Auditorlar Palatasının üzvlük öhdəliklərindən irəli gələn vəzifələrin bundan sonra da vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.
6. Bu qərarın və “Hesabat”ın mətnlərinin Palatanın internet səhifəsində azərbaycan və ingilis dillərində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**